## *TƏHSİLİN TƏŞKİLİ VƏ İDARƏEDİLMƏSİ MƏSƏLƏLƏRİ*
## *ISSUES OF ORGANIZATION AND MANAGEMENT OF EDUCATION*
## *ВОПРОСЫ ОРГАНИЗАЦИИ И УПРАВЛЕНИЯ ОБРАЗОВАНИЕМ*

*378.4:303.722*

***Şəlalə Əli qızı Adıgözəlova,***
*Sumqayıt Dövlət Universitetinin Pedaqogika və*
*psixologiya kafedrasının dosenti*
*https://orcid.org/0000-0003-4277-0866*
*E-mail.adigozelshalala@gmail.com*

***Tahirə Əliş qızı Qasımova***
*Sumqayıt Dövlət Universitetinin Pedaqogika və*
*psixologiya kafedrasının müəllimi*
*https://orcid.org/0000-0002-5934-6431*
*E-mail:taira8474@gmail.com*
*https://doi.org/10.69682/arti.2025.92(6).153-156*

# MÜƏLLİMİN SİNİFİN İDARƏETMƏ PROSESİNDƏ ROLU

***Shalala Ali Adygezalova,***
*associate professor of the department of Pedagogy and psychology at*
*Sumgayit State University*

***Tahira Alish Gasimova***
*lecturer of the department of Pedagogy and psychology at*
*Sumgayit State University*

# THE ROLE OF THE TEACHER IN THE CLASSROOM MANAGEMENT PROCESS

***Шалала Али гызы Адыгезалова,***
*доцент кафедры педагогики и психологии*
*Сумгаитского Государственного университета*

***Тахира Алиш гызы Гасымова***
*преподаватель кафедры педагогики и психологии*
*Сумгаитского Государственного университета*

# РОЛЬ УЧИТЕЛЯ В ПРОЦЕССЕ УПРАВЛЕНИЯ КЛАССОМ

**Xülasə.** Məqalədə şagird qruplarına rəhbərliyin pedaqoji problemləri göstərilir və qarşıya çıxan çətinliklər və onların həlli yolları təhlil olunur. Əsas məqsəd sinif rəhbərlərinin şagird qrupları ilə iş prosesində üzləşdiyi pedaqoji məsələləri müəyyən etmək və onların səmərəli idarə olunması üçün tövsiyələr təqdim etməkdir. Şagirdlər arasında psixoloji mühitin yaradılması, qarşılıqlı hörmət və əməkdaşlığın təşviqi, liderlik və məsuliyyət hissinin formalaşdırılması rəhbərliyin əsas məqsədlərindəndir.

***Açar sözlər:*** *sinif rəhbəri, şagird qrupu, sosial qrup, birgəfəaliyyət, münasibət, fasilitasiya, sinifə rəhbərlik, rəhbərlik üslubu, əməkdaşlıq, məqsəd və vəzifələr, planlaşdırma, texnologiya, paradiqma*

**Abstract.** This article explores the pedagogical problems related to managing student groups, analyzing the challenges, their underlying causes, and potential solutions. The main aim of the study is to identify the key pedagogical issues faced by class leaders in working with student groups and offer methodological recommendations for effective management. The article emphasizes the importance of creating a healthy psychological environment within the group, fostering mutual respect, leadership, and a sense of responsibility among students.

***Key words:*** *class leader, student group, social group, team work, attitude, facilitation, classroom management, leadership style, collaboration, goals and objectives, planning, technology, paradigm*

**Аннотация.** В статье рассматриваются педагогические проблемы, связанные с руководством ученическими группами. Основная цель выявить ключевые педагогические вопросы, с которыми сталкиваются классные руководители в процессе взаимодействия с ученическими коллективами. Отмечается важность создания психологической атмосферы в коллективе, формирование взаимопонимания, лидерских качеств и чувства ответственности среди учеников.

***Ключевые слова:*** *классный руководитель, школьная группа, социальная группа, совместные действия, отношение, фасилитация, управление в классе, стиль руководства, сотрудничество, цели и задачи, планирование, технология, парадигма*

Məlum olduğu kimi, məktəbdə idarəetmə təhsil sistemi üçün qəbul olunmuş qanunlar, onun daxili nizamnaməsi, tələb, qaydaları əsasında nizamlanır. Bu zaman təhsil sistemində idarəetmənin bir sıra formalarından istifadə edilir. İdarə edən və idarə olunanlar bu qaydalarla rəsmi əlaqələr qurur, birgə, razılaşdırılmış fəaliyyət göstərirlər. Sinif rəhbərinin təhsil prosesinin digər iştirakçıları ilə qarşılıqlı münasibətləri də bu qaydalara və münasibətlər psixologiyasına görə nizamlanır.

Əslində, heç bir sənəddə, o cümlədən məktəb nizamnaməsində sinif rəhbərliyi istiqamətləndirən geniş şərhlər verilmir. Bu proses, bir tərəfdən sinif rəhbərinin özünün pedaqoji-psixoloji paradiqmasında, iş üslubunda, digər tərəfdən, rəhbərlik üslubunda öz əksini tapır. Sinfə rəhbərlik prosesi də buna uyğun şəkildə qurulur. Nəticədə bu qurulma bir sıra qeyri-müəyyən, aydınlaşmamış təsirlər altında baş verir.

Təhsil sistemində qruplarının idarə olunmasının özünəməxsus xüsusiyyətləri var. Hər bir sosial qrupda idarəetmə fərqli üsullarla tənzimlənir. Təhsil qruplarının idarə olunması da fərqlidir. Burada sinif rəhbərinin şagirdlərlə münasibətlərində öndə duran sənəd məktəbdaxili nizamnamədir. Ə.Ə. Əlizadə və H.Ə. Əlizadə yazırlar: "Müəllim də, şagird də konfensial roldur. Özlərinin rol repertuarlarına görə onlar müxtəlif adamlarla bağlıdırlar. Bu kökdə də müəllim və şagirdlərin münasibətləri şaxələnir" "müəllim-müəllim", "müəllim-valideynlər", şagird-şagird", "şagird-valideyn" və s. tipli münasibətlər şəbəkəsi nə qədər çoxcəhətli olursa, olsun, onların mürəkkəb kontiniumunda mərkəzi sistem, təşkiledici münasibətlər "müəllim-şagird" münasibətləri sayılır" (1, s. 88).

Sinfə rəhbərlik müəllimdən şagird qruplarına rəhbərlik bacarıqları tələb edir. Qruplarla iş bir təlim forması kimi şagirdlərə əməkdaşlıq xüsusiyyətləri, keyfiyyətləri aşılayır. Kurikulum proqramı çərçivəsində təşkil olunan dərslərdə həmin keyfiyyətlər aşılamaq üçün kifayət qədər şərait yaratmaq mümkündür. Ancaq hələ də, təəssüf ki, məktəblərdə müəllimlər bu sahədə təcrübəzislik hiss edirlər. Məsələ bundadır ki, məktəbdə "subyekt-subyekt" münasibətlərinin psixoloji mahiyyəti hələ yetərincə aydınlaşdırılmayıb. Bu sahədə sistemli psixoloji-pedaqoji tədqiqatlar aparılmayıb. Fasilitatorluq fəaliyyətinin praktik tərəfləri müəllimlər tərəfindən kurikulumun tələblərinə uyğun şəkildə mənimsənilməyib. Belə bir şəraitdə, deməli, şagird qruplarının müasir tələblər baxımından necə idarə edilməsi məsələsi də aydınlaşmamış qalır. Ona görə də, hazırda sinfə rəhbərlik üslubunun hansı ölçülərə uyğun gəlməsi, təhsildə aparılan islahatlar baxımından hansı prinsiplərlə tənzimlənməsi, müxtəlif yaşlar üzrə qrup fəaliyyətinin təşkilində hansı üsullardan istifadə edilməsinin izahı zəruri məsələ kimi meydana çıxır. K. Levin tərəfindən yaradılmış sahə nəzəriyyəsinin əsas ideyasını sosial davranışın qanunlarını psixoloji və sosial enerji anlayışlarının dərk olunmasında, onun determinasiyasında axtarmağın lazım olması fikri təşkil edir. K. Levinin bu araşdırmalarının nəticələri "sahə nəzəriyyəsi"ndə ümumiləşir. Sahə nəzəriyyəsində öyrənilən digər əsas məsələlər: qrupun formalaşması şərtləri, digər qruplarla qarşılıqlı münasibətlər, qrup normalarının və məqsədlərin formalaşması, qrupda liderlik problemi və s. təşkil edir.

İnsanların sosial davranışına hansı tələbatların təsir etdiyi sualına cavab axtaran qrup dinamikası məktəbinin nümayəndələri qrupdaxili münaqişələr problemini qrup şəklində fəaliyyətin səmərəliliyi, qrupdaxili rəqabət problemi ilə uyğun şəkildə araşdırmışlar. K. Levin hesab edir ki, biz hər hansı bir qrupu o, yalnız öz xüsusiyyətlərinə, əlamətlərinə malik olduqdan sonra qəbul edə bilərik. Onun fikrincə, qrupun xüsusiyyətləri onun elementlərinin (üzvlərinin) xüsusiyyətləri ilə deyil, elementlər arasındakı münasibətlər ilə şərtlənir. K. Levin bir neçə insanın bir yerdə fəaliyyətini heç də həmişə qrup olaraq qəbul etmir (2, s. 389).

Araşdırmalar nəticəsində məlum olmuşdur ki, başqalarının iştirakı zamanı fəaliyyətdə sürət artır, lakin bu zaman keyfiyyət aşağı düşür. Elmdə bu effekt "sosial fasilitasiya" adı qazanmışdır. D. Mayers sosial fasilitasiyaya dair araşdırmaları nəzərdən keçirərək bu qənaətə gəlir ki, qrup insanlara oyadıcı, ehtiraslandırıcı, fəallaşdırıcı təsir göstərə bilir. Eksperimentlər nəticəsində həmçinin əks effekt – başqa şəxslərin iştirakının fərdin fəaliyyətinə ləngidici təsiri də müəyyən olunmuşdur. Bu effekt öz növbəsində psixologiyada sosial inhibasiya adı almışdır. Qeyd olunmalıdır ki, psixologiyada daha çox sosial fasilitasiya fenomeni tətbiq olunmaqdadır və ümumiyyətlə bu araşdırmaların elmə verdiyi ən böyük nailiyyət məhz sosial fasilitasiya anlayışı hesab olunur (3, 186).

Ə.S. Bayramov və Ə.Ə. Əlizadə qrup münasibətlərində sosial fasilitasiya və onun önəmli tərəflərini vurğulayırlar: "Sosial fasilitasiya dedikdə insanların sosial təmas şəraitində biri-birinə göstərdikləri müsbət təsir nəzərdə tutulur. Bu zaman onların fəallığı artır, reaksiyaları nisbətən asanlaşır, fəaliyyətin nəticəsi yaxşılaşır" (5, s. 116). Müəlliflər sosial fasilitasiyanın 3 effektini ayırd edirlər (4, s. 116-117):

kütləvi effekt – başqa adam sosial situasiyada ancaq tamaşaçı kimi iştirak edir və özünü passiv aparır; koaksiya effekti – adamlar birgə fəaliyyətdə iştirak edilər; interaksiya effekti – fərdlərin birgə fəaliyyətdə iştirakı əməkdaşlıq xarakteri kəsb edir (qarşılıqlı təsir).

Qrupların araşdırılmasına başlayarkən həll edilməli ilk suallardan biri belədir: kiçik qrup nədir, onun əlamətləri və sərhədləri necədir? Rusiya psixoloqu Q. Andreyevanın "Sosial psixologiya" kitabında bu anlayışın məzmunu aşağıdakı kimi açıqlanır: "Kiçik qrup dedikdə, tərkibi azsaylı olan qruplar nəzərdə tutulur. Onun üzvləri bir-birinə ümumi ictimai fəaliyyətlə bağlıdırlar. Bu da öz növbəsində qrup üzvləri arasında birbaşa emosional münasibətlərin yaranmasına səbəb olur". Bu, qrup haqqında dəqiq ifadə olunmuş və tez bir zamanda təsəvvür yaradan fikirdir (5, s. 126).

Sinif rəhbəri şagirdlərlə işləyərkən bu amili həmişə diqqət mərkəzində saxlamalıdır ki, insan dünyanın ən dəyərli varlığıdır. Bu səbəbdən məktəbdə təhsil alan şagirdlərə onların fərdiliyi, özəlliyi baxımından yanaşılmalıdır. Son dövrlərdə şagirdin sinif qrupunun üzvü kimi tədqiq olunmasına diqqət artmışdır. Deməli, sinif rəhbəri şagirdlərə ilk növbədə özünü qrupda təsdiqetmə bacarıqları aşılamağa yönələn fəaliyyət göstərməlidir.

Sinif rəhbəri məktəbin direktoru tərəfindən təyin edilir. Onun fəaliyyəti tədris işləri üzrə direktor müavini tərəfindən tənzimlənir. Bunlar, sinif rəhbərinin rəsmi səlahiyyətlərini tənzimləyən normativ tələblərdir.

Əslində, sinif rəhbəri kimdir? Sinir rəhbərinin idarəetmə və rəhbərlik fəaliyyəti, ilk növbədə şagirdlərin mənəvi tələbatının ödənilməsinə xidmət etməlidir. O, bir tərəfdən şagirdlərin potensial imkanlarını maksimum qaydada reallaşdırmağa kömək edirsə, digər tərəfdən fəaliyyət prosesində şəxsiyyətin formalaşması üçün mənəvi-psixoloji iqlim şəraitinin yaradılmasına, qarşılıqlı münasibətlərin tənzimlənməsinə istiqamət verir. Bu proses onun rəhbərlik üslubu, qarşılıqlı münasibətləri, şagirdlərlə bir-birini qavrama və anlamasının qarşılıqlı təsirində baş verir. A.N. Abbasov pedaqogikada sinif rəhbərinin statusu haqqında bunları qeyd edir: "Sinif rəhbəri, adətən bu sinifdə dərs aparan nümunəvi əxlaqa, təşkilatçılıq bacarığına malik, tərbiyə işinin metodikasına bələd olan, öz ixtisasına dərindən yiyələnən, uşaqları sevən, fənn müəllimlərindən biri olur. Deməli, o, bir tərəfdən fənn müəllimi, digər tərəfdən tərbiyəçi-rəhbər funksiyasını öz üzərinə götürür" (6, s.320).

"Sinif rəhbəri" anlayışının mahiyyəti məktəbdə təhsil alan və artıq almış hər bir kəsə aydındır. Bir çoxları onun simasını heç zaman unutmur, xoş hisslərlə yada salır, bəziləri isə təəssüf doğuracaq duyğularla xatırlayırlar. Bu, əlbəttə ki, sinif rəhbərinin pedaqoji fəaliyyətində şagirdlərə necə münasibət göstərməsi ilə bağlı olur.

Sinif rəhbərinin başlıca *məqsədi* - şagird şəxsiyyətinin inkişafı, onların özünüinkişaf və özünüreallaşdırması üçün əlverişli mühit yaratmaq, cəmiyyətdə uğurla sosiallaşmasına nail olmaqdır. Məqsəd bir sıra vəzifələr əsasında reallaşdırılır. Bu vəzifələr iki qrupa bölünür: ümumi və konkret vəzifələr.

Sinif rəhbərinin işinin planlaşdırılması onun vəzifələrinə daxil olan başlıca məsələlərdən biri, həm də birincisidir. Bu işə məsuliyyətli münasibət sinif rəhbərinin öz işinə motivləşməsinə zəmin yaradır. Hər bir sinif rəhbəri bu işin əhəmiyyətini və vacibliyini dərk edir, lakin heç də hər kəs planlaşmanı könüllü aparmır. Bu işə,

sadəcə olaraq, adminstrativ funksiya kimi yanaşırlar. Təcrübədə planlaşdırma və onun icrasından sövq alan, məmnunluq duyan azsaylı pedaqoqla rastlaşmaq olar.

Sinif rəhbərini fəaliyyətinin məqsədi planlaşdırılmış, sistemli şəkildə həyata keçirilir. Məqsədin reallaşdırılması üçün illik iş planı tərtib edilərək məktəb rəhbərliyi tərəfindən təsdiqlənir. Planlaşdırılan tədbirlər şagirdlərin yaşa görə aparıcı fəaliyyəti ilə uzlaşdırılır. Əslində, planlaşma yaradıcı prosesdir. O, spontan, sistemli, fasiləsiz davam edən fəaliyyətin tənzimlənməsini nəzərdə tutan bir işdir. Burada nəyin daha vacib, nəyin ikinci dərəcəli olmasına, fərqli tərzdə qurulmasına, sinifdəki şagirdləri, onların valideynlərini, məktəbin rəhbərliyini, nəhayət, sinif rəhbərinin özünü razı salmasına diqqət yetirmək lazım gəlir. Ona görə də planlaşdırmada hər kəsi təmin edən məsələləri əhatə etmək, hansı formada və hansı işi təşkil etmək çox önəmlidir.

Sinif qrupu cəmiyyətin sosial strukturunun komponentidir. Sinif qrupu isə qrupun geniş yayılmış formalarındandır. Q.Y. Abbasova, R.M. Mahmudova və H.Ə. Əlizadə bildirirlər ki, şagirdlərin birgə fəaliyyətinin qrup formasında təşkili prosesində şagirdlərdə sosial əməkdaşlıq motivinin formalaşdırılması üçün əlverişli şərait yaranır. Onlar eyni bir məkanda, sinif məkanında artıq təklikdə fəaliyyət göstərmir, bir-birilə qarşılıqlı surətdə kömək edir, bir-birilə məsləhətləşir, hər hansı bir tədris tapşırığı birlikdə müzakirə olunur. Şagirdlər bir-birilərinə qarşılıqlı surətdə nəzarət edirlər. Ümumi sosial fəaliyyətdə qrup şəklində iştirak bu qrupu həmin fəaliyyətin subyekti kimi təfsir etməyə imkan verir. Bu təfsirə kifayət qədər aydınlıq gətirilməsi üçün yuxarıda göstərilən fikirdə ən əsas və dəyərli hissə seçilməlidir: sinif qrupu-ictimai münasibətlərin birbaşa şəxsi əlaqələr şəklində özünü göstərdiyi qrupdur. Bu fikirdə şagirdlərdən təmsil olunan qrupun əsas əlamətləri özünü göstərir. Belə ki, sinif qrupu ictimai münasibətləri vakuumda deyil, müəyyən sistemdə real şəkildə fəaliyyət göstərən insanlardan ibarətdir. Sinif qrupu konkret ictimai fəaliyyətin subyekti rolunda çıxış edir və məktəbin strukturunun bir hissəsidir.

Bundan başqa, sinif qruplarında ictimai münasibətlər bilavasitə şəxsiyyətlərarası münasibətlər formasında özünü göstərir. Bu, şagirdlər arasında sadəcə əlaqələr deyil, birgə fəaliyyətə əsaslanan ictimai əlaqələrin reallaşdığı qrupdur. Məhz belə qrupla işləmək üçün müasir təlim texnologiyaları yaradılmışdır. Həmin texnologiyaların tətbiqi sinif rəhbərindən yaradıcılıq bacarığı tələb edir. Təlim texnologiyalarının psixoloji məzmunu özündə mənimsəmə prosesi ilə bağlı olanları birləşdirir. Bütün bunlar təhsil paradiqmalarında birləşərək onun konseptual əsaslarını əmələ gətirir. Yeni modellər də belə tutarlı, elmi-təcrübi bazaya malik olan təhsil paradiqmaları əsasında həyata keçirilir. Bunun üçün sinif rəhbəri, ilk növbədə özünün fərdi iş üslubuna uyğun idarəetmə paradiqması müəyyənləşdirməlidir.

**Problemin aktuallığı.** Tədqiqatın aktuallığı şagird qruplarına rəhbərliyin pedaqoji problemlərini və qarşıya çıxan çətinliklərini, onların həlli yollarını araşdırmaqdır.

**Problemin elmi yeniliyi.** Elmi məqalədə məktəbdə sinir rəhbərinin idarəetmə və rəhbərlik fəaliyyətini, əməkdaşlıq şəraitində şagirdlərin yaradıcılıq qabiliyyətlərini aşkar etmək üçün yeni modellərin hazırlanmasıdır.

**Problemin praktik əhəmiyyəti.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbələr, magistrantlar və doktorantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Əlizadə, Ə.Ə. Pedaqoji psixologiya / Ə.Ə. Əlizadə, H.Ə. Əlizadə. – Bakı: –2010. –600 s.
2. Левин, К. Теория поля в социальных науках / К. Левин. –СПб.: Сенсор, –2000. –368 с
3. Майерс, Д. Социальная психология. / Д. Майерс. –СПб.: Речь, –2002. –567 с.
4. Bayramov, Ə.S. Sosial psixologiya / Ə.S. Bayramov, Ə.Ə. Əlizadə. –Bakı: Qapp-Poliqraf. Korporasiyası. –2003. –356 s.
5. Abbasov, A.N. Pedaqogika. Pedaqoji ali məktəb tələbələri üçün dərs vəsaiti / A.N. Abbasov -Bakı: Mütərcim, – 2010. –356 s.
6. Abbasova, Q.Y. Təhsilin sosial-pedaqoji məsələləri / Q.Y. Abbasova, R.M. Mahmudova, H.Ə. Əlizadə. – Bakı: Turan evi, – 2008. –202 s.
7. http://nsportal.ru/shkola/administrirovanie-shkoly/library
8. http://freepsychology.narod.ru
9. http://wolf-kitses.livejournal.com

**Redaksiyaya daxil olub:** 26.09.2025